**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# A.M. NAĞIYEVİN SAHİBKARLIQ, XEYRİYYƏÇİLİK VƏ İCTİMAİ FƏALİYYƏTİ

İxtisas: 5503.02 – "Vətən tarixi"
Elm sahəsi: Tarix

İddiaçı: **Dilarə Əliəsgər qızı Muxtarova**

fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Yeni tarix və Azərbaycan xalqına qarşı soyqırımlar tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**Şirxan Dadaş oğlu Səlimov**

**Elmi məsləhətçi:** tarix üzrə fəlsəfə doktoru, dosent
**Hacı Nuru oğlu Həsənov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**Camal Mehdi oğlu Mustafayev**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Firdovsiyyə Firdovsi qızı Əhmədova**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Orxan qızı Kərimzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

__________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent

__________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

__________ **Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrin II yarısı – XX əsrin 20-ci illəri Azərbaycan milli tarix elmi üçün öz yeni xüsusiyyətləri və tarixi problemləri ilə diqqəti cəlb edən bir dövrdür. Bu dövrdə Rusiya imperiyasında keçirilmiş müxtəlif islahatlar ucqar müstəmləkə olan Şimali Azərbaycanda da ciddi dəyişikliklərə səbəb olmuşdu. 1872-ci ildə iltizam (müqatiə) sisteminin ləğvi Azərbaycan neft sənayesində kapital qoyuluşunun artmasına, sahibkarlığın genişlənməsinə, milli kapital nümayəndələrinin təşəkkülünə və onların çoxsahəli fəaliyyətinə şərait yaratmışdı. XIX əsrin sonu – XX əsrin əvvəllərində Böyük Bakı neft sənayesi rayonunun inkişafı Avropa, Rusiya kapital nümayəndələri ilə yanaşı, Azərbaycan milli kapitalının görkəmli nümayəndələrinin böyük əməyi, investisiyaları nəticəsində mümkün olmuşdur. Bu dövrə öz münasibətini bildirən Ümummilli lider Heydər Əliyev 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması mərasimində etdiyi çıxışında "... Həmin dövrdə Bakı neftindən bütün dünyada istifadə edilmişdir. Azərbaycan nefti xarici ölkələrin şirkətlərinə böyük mənfəət gətirmişdir. Azərbaycanda böyük sahibkarlar meydana çıxmış, onlar külli miqdarda mənfəət əldə etmişdilər. Bu dövrdə Azərbaycan neft sənayesinin inkişafı Bakının, ümumiyyətlə Azərbaycanın inkişafına böyük təkan vermişdir... Qədim tarixə malik olan Bakımız həmin dövrdə yeni sima kəsb etmiş, genişlənmiş, gözəlləşmişdir və burada o vaxtın tələblərinə uyğun müasir binalar, ... sənaye obyektləri tikilmişdir" – deyərək, bu dövrə çox yüksək qiymət vermişdir.[1]

Məlumdur ki, tədqiq edilən tarixi dövrdə çar Rusiyası cəmiyyətində baş verən sosial-iqtisadi, siyasi proseslər Şimali Azərbaycanda da müvafiq əks-səda doğururdu. Neft sənayesinin inkişafı ilə bağlı olaraq, bazar münasibətləri iqtisadiyyatı dövrünə xas olan bütün sosial-iqtisadi proseslərin geniş vüsət alması, cəmiyyətdə qütbləşmənin, bir sıra sosial-iqtisadi böhranların dərinləşməsi Şimali Azərbaycanda da özünü büruzə verirdi.

---

[1] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 2. – 1997, – s. 256.

1920-ci ildən başlayaraq sovet rejiminin Şimali Azərbaycanda həyata keçirdiyi qırmızı terror, geniş repressiyalar həm də milliyyətindən asılı olmayaraq bütün zəngin təbəqə nümayəndələrinə, o cümlədən milli sahibkarlara qarşı yönəlmişdi. Sovet hakimiyyəti Şimali Azərbaycanda milli sahibkarların da şəxsi mülkiyyətini, neft mədənlərini, zavod və fabriklərini milliləşdirir, sərmayələrini, bank əmanətlərini müsadirə edir və onları, ailə üzvləri daxil olmaqla, maddi-mənəvi sarsıntılara məruz qoyurdu.

Sovet Azərbaycanında "kapitalist" kateqoriyasına aid olan iş adamları, sahibkarlar, neft milyonçuları "istismarçı kapitalist", "sinfi düşmən", "xalq düşməni" kimi təbliğ edilərək yeni sovet nəslinin yaddaşına neqativ obrazda həkk olunurdular. Beləliklə, yarım əsr ərzində ciddi səylər nəticəsində formalaşmış milli kapital nümayəndələrinin fəaliyyəti inkar edildi, özləri isə "unutduruldular". Azərbaycan xalqının yaşlı nəsli isə bu sahibkarların xeyirxah əməllərinin şahidi kimi onların xeyirxah əməllərini, səxavətli ianələrini unutmadı və onları öz xatirələrində yaşadır.

XX əsrin sonunda Sovet İttifaqının süqutundan, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Vətən tarixşünaslığı, Azərbaycan milli tarix elmi qarşısında böyük perspektivlər açıldı. Sovet hakimiyyəti dövründə tədqiqinə qadağa qoyulan mövzular araşdırılmağa, ilkin arxiv mənbələri elmi dövriyyəyə cəlb edilməyə başlandı. Hazırda milli tarix elmi azərbaycançılıq ideologiyası aspektindən yenidən tədris olunur, qadağan olunmuş mövzular tədqiq edilir, "məxfi qrifli" arxiv sənədləri elmi dövriyyəyə gətirilir, mövzuları kompleks şəkildə tədqiq etmək üçün tədqiqatçılara imkanlar yaradılır.

Sovet rejiminin tədqiqini qadağan etdiyi mövzulardan biri də XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinin inkişafında ciddi rolu olmuş Azərbaycan neft milyonçularının, milli kapital nümayəndələrinin və onların xeyriyyəçilik hərəkatında rolunun öyrənilməsi, bu tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinin araşdırılması idi. O dövrdə yazılmış tarixi əsərlərdə sahibkarların üzərinə "kapitalist" damğası vurulmuş, onların fəaliyyəti tədqiqatlardan kənarda qalmışdı.

Lakin bütün bunlara baxmayaraq Bakı neft sənayesinin inkişafına sərmayələr yatırmış mesenatların xeyriyyəçilik fəaliyyəti Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuş, millət qarşısında xidmətləri ilə şöhrət qazanmışlar. Onları tarixdən birdəfəlik silmək sovet ideologiyasına nəsib olmadı. Belə şəxsiyyətlərdən biri də A.M.Nağıyevdir.

Hazırda milli tarixi köklərimizin, Azərbaycan xalqının tarixi şəxsiyyətlərinin fəaliyyətinin tədqiqi müasir Azərbaycan milli tarix elminin qarşısında duran aktual vəzifələrdəndir. Bu baxımdan Azərbaycan xalqının milli xüsusiyyətinə xas olan xeyirxah əməlləri ilə fərqlənmiş A.M.Nağıyevin Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinin, onun sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyətinin kompleks şəkildə tədqiq edilməsi Vətən tarixşünaslığının aktual və böyük əhəmiyyət kəsb edən problemlərindən biridir.

Qeyd edilən problemin hazırkı dissertasiya işində kompleks şəkildə tədqiq edilməsi sovet ideoloji çərçivəsindən kənarda qalmış tarixi həqiqətin üzə çıxarılması işinə böyük töhfə ola bilər.

Tədqiqat probleminin ayrı-ayrı aspektləri indiyədək müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmışdır. Məlumdur ki, A.M.Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti onun sahibkarlıq fəaliyyəti ilə sıx şəkildə bağlılıq təşkil edir. Bu səbəbdən Azərbaycan tarixçilərinin sanballı tədqiqatlarında Bakı neft sənayesinin inkişafının tədqiqi fonunda xeyriyyəçilik hərəkatı da müəyyən qədər işıqlandırılır. Sovet dövrünün ideoloji çərçivəsində yazılmalarına baxmayaraq, bu monoqrafiyalar zəngin faktoloji materialların cəlb edilməsi və dərin elmi təhlillərin aparılması ilə fərqlənirlər. Bu baxımdan M.Ə.İsmayılovun,[2] M.Ə.İsmayılov və M.C.İbrahimovun,[3] C.M.Mahmudovun,[4]

---

[2] Исмаилов, М.А. К вопросу о ликвидации откупной системы в нефтяной промышленности Азербайджана / – Баку: Труды института истории и философии АН Азерб.ССР, – 1952, – т. II; Исмаилов, М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма / М.А.Исмаилов. – Баку: Элм, – 1982. – 165 с.

[3] İsamyılov, M. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi / M.İsamyılov, M.İbrahimov. – Bakı: Elm, – 1991. – 282 s.; İsamyılov, M. El atası / M.İsamyılov, M.İbrahimov. – Bakı: Azərnəşr, – 1994. – 21 s.

[4] Mahmudov, C.M. Bakı nefti, neft milyonçuları və Nobel qardaşları/

İ.V.Striqunovun,[5] Y.M.Mahmudovun,[6] S.S.Əliyarovun,[7] B.Y.Axundovun,[8] A.M.Qədirlinin,[9] R.S.Lifşitsin,[10] V.A.Nardovanın,[11] V.A.Səmədovun,[12] Ə.S.Sumbatzadənin,[13] C.Ə.Bəhramovun,[14] L.A.Muradverdiyevanın[15] monoqrafiyaları mövzunun araşdırmasında böyük əhəmiyyət kəsb edir.

Qeyd edilmiş əsərlərdə Rusiya imperiyasının iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən Bakı neft sənayesinin yaranmasının və inkişafının müxtəlif məsələləri tədqiq edilib. Bu əsərlər yarandıqları dövrlərdə dominantlıq etmiş sovet ideologiyası çərçivəsində yazılmalarına baxmayaraq, onlar müasir tədqiqatçıların tənqidi yanaşaraq istinad etdikləri böyük əhəmiyyət kəsb edən sanballı elmi əsərlərdir. Adı çəkilən müəlliflərin əsərlərində A.M.Nağıyevin fəaliyyətini

---

C.M.Mahmudov. – Bakı: Nurlan, – 2006. – 335 s.

5 Стригунов, И.В. Из истории формирования Бакинского пролетариата (70-90 гг. XIX в.) / И.В.Стригунов. – Баку: Изд-во Акад. наук АзССР, – 1960. – 289 с.

6 Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası: [2 cilddə] / Baş redaktor. Yaqub Mahmudov. – Bakı: Lider nəşriyyatı, – I cild. – 2004. – 440 s.

7 Алияров, С.С. Нефтяные монополии Азербайджана в период первой мировой войны / С.С.Алияров. – Баку, АГУ, – 1974. – 228 с.

8 Ахундов, Б.Ю. К вопросу об иностранном капитале в дореволюционной бакинской нефтяной промышленности // – Баку: Известия АН Азерб. ССР, – 1953. №4.

9 Кадырлы, А.М. Из истории развития дореволюционной Бакинской нефтеперерабатывающей промышленности / А.М.Кадырлы. – Баку: Элм, – 1970. – 86 с.

10 Лифшиц, Р.С. Размещение промышленности дореволюционной России / Р.С.Лифшиц. – Москва: Из-во АН СССР, – 1955. – 293 с.

11 Нардова, В.А. Начало монополизации нефтяной промышленности России 1880-1890-е гг. / В.А.Нардова. – Ленинград: Наука, – 1974. – 151 с.

12 Самедов, В.А. Бакинский нефтепромышленный район в экономическом развитии России (1880-1900): / автореф. диссер. доктора истор. наук / – Баку: 1990. – 62 с.

13 Сумбатзаде, А.С. Промышленность Азербайджана в XIX в. / А.С.Сумбатзаде. – Баку: изд-во АН Аз.ССР, – 1964. – 501 с.; Сумбатзаде, А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане / А.С.Сумбатзаде. – Москва: Наука, – 1972. – 254 с.

14 Bəhramov, C.Ə. Azərbaycan nefti / C.Ə. Bəhramov. – Bakı: 2010. – 352 s.

15 Мурадвердиева, Л.А. Бакинская нефть: уроки истории / Л.А.Мурадвердиева. – Баку: Шарг-Гарб, – 2006. – 663 с.

ilə bağlı bəzi əhəmiyyətli materiallar verilmiş, məsələlərə toxunulmuşdur . Lakin hazırkı dissertasiya qarşısında qoyulan məqsəd və vəzifələr bu əsərlərin tədqiqat predmeti olmadığına görə sahibkarın kompleks şəkildə fəaliyyəti bu araşdırmalardan kənarda qalıb.

Hazırkı tədqiqat mövzusunun kontekstində E.B.Muradəliyevanın[16] əsərlərində, Z. N.Nuriyevanın[17] tədqiqatında XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan milli burjuaziyasının formalaşması, Bakının neft və digər sənaye sahələrində, Azərbaycanın qəzalarındakı sənaye sahələrində milli kapitalın payı və iqtisadi qüdrəti araşdırılır. C.Cavadovun,[18] S.Talıbovanın,[19] N.Məmmədovanın[20] əsərlərində Azərbaycanda xeyriyyəçilik cəmiyyətlərin yaranması və onların inkişafının tədqiqi kontekstində A.M.Nağıyevin sahibkarlıq, ictimai, xeyriyyəçilik fəaliyyətinə dair bir sıra materiallar elmi dövriyyəyə daxil edilib.

Azərbaycan tarixşünaslığında D.B.Seyidzadənin,[21] İ.S.Bağırovanın,[22] S.S.Süleymanovanın[23] araşdırmaları tədqiqat dövrünün siya-

---

[16] Мурадалиева, Э.Б. Города Северного Азербайджана во второй половине XIX века / Э.Б.Мурадалиева. – Баку: Бакинский университет, – 1991. – 168 с.; Мурадалиева, Э.Б. Кровь земная – нефть Азербайджана и история. Книга 1 / Э.Б.Мурадалиева. – Баку: Мутарджим, – 2005. – 256 с.; Мурадалиева, Э.Б. Становление бакинского нефтяного бизнеса и мировая борьба за нефть на рубеже XIX-XX столетий // – Баку: Известия Бакинского Государственного Университета, – 2006. № 4, – с. 64-70.

[17] Nuriyeva, Z.N. Azərbaycan sənayesində milli burjuaziya / Z.N.Nuriyeva. – Bakı: Altay nəşriyyatı, – 1999. – 108 s.

[18] Cavadov, C.Q. Azərbaycanda xeyriyyəçilik hərəkatı: XIX əsrin sonu və XX əsrdə / C.Q.Cavadov. – Bakı: Elm, 1999. – 256 s.

[19] Талыбова, С.Г. Культурно-просветительская и благотворительная деятельность азербайджанской буржуазии (конец XIX – начало XX века): / дис. канд. истор. наук / С.Г.Талыбова. – Баку, – 1994. – 202 с.

[20] Məmmədova, N.Ə. "Nəşr-maarif" cəmiyyətinin yaranması və fəaliyyəti / N.Ə.Məmmədova. – Bakı: Elm, – 2003. – 188 c.

[21] Сеидзаде, Д.Б. Из истории Азербайджанской буржуазии начала XX века / Д.Б.Сеидзаде. – Баку: Элм, – 1991. – 138 с.

[22] Багирова, И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917) / И.С.Багирова. – Баку: Елм, – 1997. – 336 с.

[23] Süleymanova, S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri) / S.Süleymanova. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, –

si mənzərəsini geniş şəkildə tədqiq etməklə hazırkı dissertasiya mövzusunun bir sıra məsələlərinin açıqlanmasında mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyada tədqiq olunan bəzi məsələlərə dair ümumiləşdirilmiş, üçcildlik "Azərbaycan tarixi"nin II cildində,[24] habelə Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyasında[25] və s. əsərlərdə bəzi məlumatlar verilmişdir.

Azərbaycan Sovet Ensiklopediyasında A.M.Nağıyevin iri neft sahibkarı olması və onun binalarının milliləşdirilməsi haqqında səthi və birtərəfli məlumat verilmiş, lakin onun ictimai, xeyriyyəçilik fəaliyyəti oxucu auditoriyasına təqdim edilmədiyinə görə geniş elmi ictimaiyyətin diqqətindən kənarda qalmışdır.[26]

Dissertasiya mövzusunun bəzi süjetlərinə bu və ya digər müəyyən dərəcədə türk alimi, professor Ali Haydar Bayatın[27] elmi tədqiqatlarında da toxunulmuşdur. Alimin Əli bəy Hüseynzadənin elmi araşdırmalarının nəticəsi olan monoqrafiyaları – "Azerbaycanın Yiğit Evladı Ali Bey Hüseynzade ve Türkiyede Yayınladığı Eserleri", "Hüseynzade Ali Bey" və məqalələri – "Ali Bey Hüseynzade və En Önemli Yazılarından: Türkler Kimdir ve Kimlerden İbaretdir", "Anadolu Türk Kültür və Sanatında Azerbaycanın Yeri" və b. A.M.Nağıyevin çoxşaxəli fəaliyyətinin kompleks şəkildə tədqiq olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

---

1999. – 422 s.

[24] Azərbaycan tarixi: [3 cilddə]. – Bakı: Elm, – II cild. – 1964. – 1002 s.

[25] Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası: [2 cilddə] / Baş redaktor. Yaqub Mahmudov. – Bakı: Lider nəşriyyatı, – I cild. – 2004. – 440 s.

[26] Azərbaycan Sovet Ensiklopediyası: [10 cilddə]. / Baş redaktor akademik C.B.Quliyev. – Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası, – c. 7: Misir yazısı – Prado. – 1983. – 624 s.

[27] Bayat, Ali Haydar. Azerbaycanın Yiğit Evladı Ali Bey Hüseyinzade ve Türkiyede Yayınladığı Eserleri / A.H.Bayat. – İstanbul, Türk Dünyası Arastırmaları Vakfı, – 1992. – 181 s.; Bayat, Ali Haydar. Anadolu Türk Kültür və Sanatında Azerbaycanın Yeri / Türk Kültürü, XXX/347, – 1992, – s.147-160; Bayat, Ali Haydar. Ali Bey Hüseyinzade və En Önemli Yazılarından: Türklər Kimdir ve Kimlerden İbaretdir / Türk Dünyası Araştırmaları, – 106, – 1997, – s.9-24; Bayat, Ali Haydar. Hüseyinzade Ali Bey. / A.H.Bayat. – Ankara, Atatürk Kültür Merkezi Başkanlığı, – 1998. – 410 s.

Tədqiq edilən mövzu ilə bağlı olaraq, Azərbaycan və xarici mətbuatda bir sıra elmi-populyar xarakterli məqalələr dərc edilmişdir. Bu sırada M.Babaşovun "Bakı müsəlman ruhani "Səadət" cəmiyyəti",[28] "Milli təhsilimizin inkişafında xeyriyyəçi-maarifpərvər qurumların rolu",[29] H.Əlibəylinin "Talan",[30] E.İbrahimovun "Bakı nefti",[31] İlkin Qılmanın "Bakının üç üləması",[32] "Xeyriyyə və maarif cəmiyyətləri", "Sən köhnə Bakını tanıyırsanmı", "Bakı və bakılılar", N.Məhərrəmov və M.Babaşovun "Qafqaz müsəlmanlarının atası",[33] S.Xəyalın "A.M.Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti",[34] Ə.S.Tağıyevin "XX əsrin əvvəllərində Azərbaycanda olan cəmiyyətlərin maarifçilik fəaliyyətinə dair"[35] və s. məqalələri maraq kəsb edir.

Dissertasiyanın əsas elmi məqsədinə çatmaq və müəyyənləşdirilmiş vəzifələrindən irəli gələn məsələlərin araşdırılmasında xeyli sayda müxtəlif ilkin tarixi mənbələrdən istifadə olunmuşdur. Azərbaycan Respublikası Dövlət Tarix Arxivində Bakı neft bumu dövründə fəaliyyət göstərmiş 200-dən artıq neft şirkətinin sənədləri saxlanılır. Həmin şirkətlərin arxiv irsi çox zəngindir və Bakı neft bumunun müxtəlif aspektlərini işıqlandıran məlumatları özündə

---

[28] Babaşov, M. Bakı müsəlman ruhani "Səadət" cəmiyyəti / "Elm" qəz. – Bakı: – 1991, – №13.

[29] Babaşov, M. Milli təhsilimizin inkişafında xeyriyyəçi-maarifpərvər qurumların rolu / Qafqaz Universitetinin ikinci il dönümü münasibətilə "Azərbaycan təhsilinin inkişafında Qafqaz Universitetinin rolu" mövzusuna həsr olunmuş elmi-metodik konfransın tezisləri. – Bakı: Qafqaz Universiteti, – 1995, – s. 13-31.

[30] Əlibəyli, H. Talan / "Müxalifət" qəz. – Bakı: – 1992. – 28 aprel.

[31] İbrahimov, E. Bakı nefti / "Səhər" qəz. – Bakı: 1990. – 26 aprel.

[32] İlkin, Q. Bakının üç üləması / "Ədəbiyyat və incəsənət" qəz. – Bakı: – 1990. – №32; İlkin, Q. Xeyriyyə və maarif cəmiyyətləri / "Bərəkət" qəz. – Bakı: 1991. – 10 sentyabr; İlkin, Q. Sən köhnə Bakını tanıyırsanmı. Qısa tarixi oçerklər / Q.İlkin. – Bakı: Şirvannəşr, – 1997. 72 s.; İlkin, Q. Bakı və bakılılar / Q.İlkin. – Bakı: Zaman, – 1999. – 388 s.

[33] Məhərrəmov, N., Babaşov, M. Qafqaz müsəlmanlarının atası / "Ədəbiyyat" qəz. – Bakı: – 1991. – №6.

[34] Xəyal, S. A.M.Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti / "Bütöv Azərbaycan" qəz. – 2013. – 13-19 fevral. №06 (182).

[35] Tağıyev, Ə.S. XX əsrin əvvəllərində Azərbaycanda olan cəmiyyətlərin maarifçilik fəaliyyətinə dair / Azərbaycan SSR Ali və Orta ixtisas təhsili Nazirliyinin ali məktəblərin "Elmi əsərləri". XI seriya. – Bakı: – 1978.

cəmləşdirir. Qeyd etməliyik ki, bu şirkətlərin sənədlərinin müxtəlif səbəblərdən (tez-tez mədənlərdə baş vermiş yanğınlar, sosial-iqtisadi böhranlar, zaman keçdikcə kağızların çürüməsi və s.) tam şəkildə zamanımıza gəlib çatmamasına baxmayaraq, onlar Bakı neft sənayesinin inkişafının tədqiqində mühüm əhəmiyyət kəsb edən qiymətli ilkin mənbələrdir.

Qeyd edilən arxiv materialları sırasında 1898-1919 illər ərzində fəaliyyət göstərmiş "Musa Nağıyev neft hasilatı şirkəti"nə[36] aid arxiv fondunun sənədləri ciddi maraq doğurur. Bugünkü tarixçilərin istifadəsində olan Musa Nağıyev şirkətinin arxivi 21 qovluqdan ibarətdir. Şirkətin arxiv fondunda onun fəaliyyətinə dair geoqnostik jurnallar, fəhlə və qulluqçuların "rekonstro" adı altında saxlanılan sənədləri, neft boru kəmərinə aid, "Nobel qardaşları neft hasilatı şirkəti"[37] ilə sıx işgüzar birliyini əks etdirən materiallar cəmlənmişdir. Bu arxiv sənədləri A.M.Nağıyevin Bakı neft sənayesinin ilkin inkişaf dövründə səciyyəvi rol oynayan şirkətlər sırasında özünəməxsus yer almasını təsdiqləyir.

"Musa Nağıyev neft hasilatı şirkəti"nin arxiv sənədləri sırasında "geoqnostik jurnallar" adlanan sənədlər qrupu xüsusi əhəmiyyət kəsb edir. Geoqnostik jurnallarda Musa Nağıyevin bir milyonçu kimi tarixi arenaya gəlməsindən sonra investisiya strategiyasına malik olan təcrübəli sahibkar kimi fəaliyyət göstərməsi barəsində qiymətli məlumat vardır. Bu əsərin müəllifi tərəfindən ilk dəfədir ki, geniş tarixi tədqiqatlara cəlb edildiyinə görə bu sənədlərin daha ətraflı təsvir olunmasını məqsədəuyğun hesab edirik. Geoqnostik jurnallarda şirkətin qazma buruqlarında mütəmadi apardığı qazma işləri də öz əksini tapmışdır. Bu qaynaqlarda neft quyusu qazılmasının irəliləməsi günbəgün ətraflı qeyd edilirdi. Jurnalların xüsusiyyətləri ondan ibarətdir ki, onlar tədqiqatçıların araşdırdıqları klassik sənədlər formasında deyil. Geoqnostik jurnallar A4 formatında qatlanmış, uzunluğu onlarla metrdən ibarət olan arxiv sənədləridir. Qazma işlərinin bütün məlumatları bu jurnallara yazılırdı. Tədqiqata cəlb edilmiş geoqnostik jurnallar Mu-

---

[36] Фирма Муса Нагиева «Musa Nagiev Oil Company» // ARDTA, f.600, s.1, iş 1.

[37] Письмо Главной конторы «Пароходства и торговли бакинского купца Ага-Баба Кулиева в Баку» от 12 ноября 1912 года Главную контору Т-ва бр. Нобель // ARDTA, f. 798, siy. 9, iş 68, v. 32.

sa Nağıyevin şirkətinin formalaşmasını tədqiq etməyə yaxından yardımçı ola bilmişdir.

"Musa Nağıyev neft hasilatı şirkəti"nin "Nobel qardaşları şirkəti" ilə işgüzar əlaqələri də maraq doğuran məsələlərdəndir. Tədqiqata cəlb edilmiş arxiv sənədləri sırasında "Nobel qardaşları şirkəti"nin arxiv materialları xüsusi yer tutur. "Səlis, ardıcıl formalı dəftərxanası ilə seçilən "Nobel qardaşları şirkəti"nin"[38] arxiv sənədləri arasında "Musa Nağıyev neft hasilatı şirkəti" ilə uzunmüddətli əməkdaşlıq əlaqələrinin yaranması və inkişafından bəhs edən sənədlər xüsusi əhəmiyyət kəsb edir.

"Nobel qardaşları şirkəti"nin arxiv sənədləri arasında "Musa Nağıyev neft hasilatı şirkəti"nə aid xeyli material saxlanılmaqdadır. Bu materiallar "Musa Nağıyev neft hasilatı şirkəti"nin "Nobel qardaşları şirkəti" ilə neftin hasilatında və daşınmasında, neftin satış qiymətlərinin müəyyənləşməsində, sosial böhranlar zamanı fəhlələrin tələblərinin nizamlanmasında, fəhlələrin məvaciblərinin tənzimlənməsində, fəhlə qəsəbəsinin salınmasına dair geniş layihənin həyata keçirilməsində işgüzar birlikdən bəhs edir. Eyni zamanda tədqiqata cəlb edilmiş arxiv sənədləri "Musa Nağıyev neft hasilatı şirkəti"nin nüfuzlu bir tərəfdaş şirkət olduğunu bir daha təsdiqləyir.

Tədqiqata həmçinin XIX əsrin sonu – XX əsrin əvvəllərində fəaliyyət göstərmiş müxtəlif neft şirkətlərinin arxiv sənədləri, neft bumu dövrünün müasirlərinin – S.A.Kader,[39] P.V.Ol,[40] L. və S.Perşkelər,[41] V.Simonoviç[42] və Q.B.Starsevin[43] tədqiqatları, ayrı-ayrı döv-

---

[38] Аханчи, П.А. Нефтепромышленные рабочие Баку: (конец XIX – начало XX веков): по "личным делам" рабочего персонала "Товарищества нефтяного производства Братья Нобель" / Международный Информационный Нобелевский Центр; под ред. проф. В.М.Тютюнника. – Тамбов; Москва: Санкт-Петербург: Баку; Вена; Гамбург: изд-во МИНЦ "Нобелистика", 2013. – 140 с., s.17.

[39] Кадер, С.А. Короли нефтяной промышленности. Историко-экономический очерк / С.А.Кадер. – Петроград: Н.К.Мартынов, – 1916, – 71 с.

[40] Оль, П.В. Русская нефть и ее государственное значение / П.В.Оль. – Санкт-Петербург: Море, – 1905. – 136 с.

[41] Першке, Л. и С. Русская нефтяная промышленность, ее развитие и современное положение в статистических данных / Л. и С.Першке. – Тифлис: Тип. К.П.Козловского, – 1913. – 193 с.

[42] Симонович, В. Нефть и нефтяная промышленность в России. Историко-

lət təşkilatlarının statistik icmalları – "Bakı neft sənayesinin icmalı"[44] və illik məcmuələri – "Bakı və onun ətraf rayonları",[45] mətbuat materialları, sovet və müstəqil Azərbaycan dövrlərinin tədqiqatçılarının əsərləri cəlb edilmişdir.

Tədqiqat mövzusunun araşdırılmasında həm də Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin fondlarında saxlanılan bəzi materiallar, habelə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivindən əldə etdiyimiz azsaylı sənədlər mühüm əhəmiyyət kəsb edib.

Tədqiqat dövrünə aid dövri mətbuatda – "Azərbaycan", "Bakı", "Bərəkət", "Qafqaz" qəzetləri, və eləcə də müasir "Elm", "İrşad", "Ədəbiyyat", "Ədəbiyyat və incəsənət", "Kaspi", "Səhər", "Səs", "Respublika" qəzetlərində dərc edilmiş materiallar mühüm mənbə kimi istifadə edilmişdir.

A.M.Nağıyev enişli-yoxuşlu uzun ömür yaşamışdır. Həyatının fərqli dövrlərində onunla təmasda olmuş müasirlərin xatirələrində də "şifahi tarix" kimi müəyyənləşən xeyli materiallar həkk olunmuşdur. A.M.Nağıyevin müasirləri isə öz növbəsində xatirələrini yazılı əsərlərdə əks etdirərək bu məlumatları gənc nəslə ötürmüşdü-

---

статистический обзор / В.Симонович. – Санкт-Петербург: Тип. Ю.Н.Эрлих, – 1909. – 240 с.

[43] Старцев, Г.Б. Бакинская нефтяная промышленность. Историко-статистический очерк / Г.Б.Старцев. – Баку: тип. «Арор», – 1901. – 88 с.

[44] Обзор Бакинской нефтяной промышленности … за 1896 г. и краткие сведения о нефтяной промышленности в Грозном и Америке. – Баку: – 1897, – 212 с. (67 с. иллюс.); Обзор Бакинской нефтяной промышленности … за 1900 год, очерк нефтяной промышленности С. Америки и статистические сведения о нефтяной промышленности в Грозном. – Баку: – 1901. – 754 с.; Обзор Бакинской нефтяной промышленности … за 1904 г. Т. 1. С прил. очерка заграничной нефтяной промышленности. – Баку: – 1905, – 250 с.

[45] Ежегодник. Баку и его районы. Адресная справочная книга. 1908 / Сост. и издал. М.С.Шапсович. – Баку: 1909. – 298 с.; Ежегодник. Баку и его районы. Адресная справочная книга. 1909 / Издание М.С.Шапсовича. – Баку: – 1910. – 278 с.; Ежегодник. Баку и его районы. Адресная справочная книга. 1912 / Издание М.С.Шапсовича. – Баку: 1913. – 268 с.; Ежегодник. Баку и его районы. Адресная справочная книга. 1913 / Издание М.С.Шапсовича. – Баку: – 1914. – 499 с.; Ежегодник. Баку и его районы. Адресная справочная книга. 1914 / Издание М.С.Шапсовича. – Баку: –1914. – 390 с.

lər və o məlumatlar bü günə kimi xalqın yaddaşında yaşayır. Bu nöqteyi-nəzərdən həmin dövrün müasirlərinin xatirələri əsasında yazılmış M.Süleymanovun,[46] Q.İlkinin əsərləri[47] elmi-publisistik xarakter daşısa da, tədqiqat mövzusunun öyrənilməsində müəyyən əhəmiyyət kəsb edir.

D.Nağıyevanın[48] ailə arxivinin materiallarından və şəxsi xatirələrindən başqa ilkin arxiv mənbələri əsasında apardığı tədqiqatlar A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik, ictimai fəaliyyətinin işıqlandırılmasında xüsusi əhəmiyyət kəsb edir. Müəllifin tədqiqat obyektinə kompleks yanaşması nəticəsində tədqiq edilən dövrün siyasi, iqtisadi, sosial mənzərəsinin fonunda A.M.Nağıyevin fəaliyyətinin bütün istiqamətlərini təsvir etmək mümkündür.

Müəllifin Azərbaycan əhalisinin yaşlı nəslinin nümayəndələri ilə apardığı çoxsaylı müsahibələrin materialları A.M.Nağıyevin Bakı neft sənayesinin inkişafında, maarifçilik işində, xeyriyyəçilikdə, xü-

---

[46] Süleymanov, M. Azərbaycan milyonçuları. A.M.Nağıyev / M.Süleymanov. – Bakı: Gənclik, – 1994. – 40 s.; Süleymanov, M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim / M.Süleymanov. – Bakı: Azərbaycan, – 1996. – 384 s.; Süleymanov, M. Azərbaycan milyonçuları. Hacı Zeynalabdin Tağıyev / M.Süleymanov. – Bakı: Gənclik, – 1996. – 96 s.

[47] İlkin, Qılman. Bakının üç üləması / “Ədəbiyyat və incəsənət” qəz. – Bakı: – 1990. – №32; İlkin, Q. Xeyriyyə və maarif cəmiyyətləri / “Bərəkət” qəz. – Bakı: 1991. – 10 sentyabr; İlkin, Q. Şəxsiyyət / Q.İlkin. – Bakı: Şur, – 1995. – 176 s.; İlkin, Q. Sən köhnə Bakını tanıyırsanmı. Qısa tarixi oçerklər / Q.İlkin. – Bakı: Şirvannəşr, – 1997. – 72 s.; İlkin, Q. Bakı və bakılılar / Q.İlkin. – Bakı: Zaman, – 1999. – 388 s.

[48] Nağıyeva, D. Xalq üçün ömrünü şam kimi əridən / D.Nağıyeva. – Bakı: Elm, – 2007. – 248 s.; Nağıyeva, D. Ömrün səhifələri / D.Nağıyeva. – Bakı: Şur, – 2010. – 159 s.; Nağıyeva, D. Tarixdən silinəcək izlər dövrümüzün səhifələrində // “Səs” qəz., – 2010, – 9 iyun, – s.12; Nağıyeva, D. Zamanın sorağında / D.Nağıyeva. – Bakı: Elm, – 2011. – 229 s.; Nağıyeva, D. A.M.Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti / D.Nağıyeva. – Bakı: Elm, – 2011. – 139 s.; Nağıyeva, D. Bir əsr yaşayan insan // Respublika. – 2012, 6 noyabr, – s.7; Nağıyeva, D. Nurlu əməllərin işığında / D.Nağıyeva. – Bakı: Elm və təhsil, – 2014. – 379 s.; Nağıyeva-Muxtarova, D. A.M.Nağıyev: dövrü və fəaliyyəti // Kaspi, – 2014. 27 fevral, – s.15; Nağıyeva, D. XIX əsrin sonu – XX əsrin əvvəllərində “Şimali Azərbaycanda xeyriyyəçilik hərəkatının tarixindən // AMEA Naxçıvan bölməsinin xəbərləri: ictimai və humanitar elmlər seriyası. – 2014, №1, – s.100-105.

susən də Bakı şəhərində 98 tarixi arxitektura binasının inşa olunmasında rolunu işıqlandırmaqla dissertasiya işinin yazılması üçün zəruri materiallar qismində istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Mövcud dissertasiya işinin başlıca tədqiqat obyekti XIX əsrin sonu – XX əsrin əvvəllərində neft milyonçusu və mesenat A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyətidir.

Tədqiqatın predmetini isə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesinin inkişafında fəaliyyət göstərmiş milli sahibkarlar sırasında neft milyonçusu A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik, ictimai fəaliyyətinin sistemli şəkildə öyrənilməsi, Nağıyev və başqa milli sərmayədarların fəaliyyətinin Quzey Azərbaycanın sosial-iqtisadi və siyasi-ictimai həyatındakı rolunun ətraflı şəkildə araşdırılması, sovet repressiya siyasəti nəticəsində onun və varislərinin sonrakı taleyinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi mövcud mənbələr və tarixşünaslıq bazası əsasında A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyətini kompleks şəkildə tədqiq etmək və bununla bağlı elmi ümumiləşdirmələr aparmaqdan ibarətdir. Bu elmi məqsədə çatmaq üçün aşağıdakı elmi vəzifələr müəyyənləşdirilmişdir:

– XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesinin inkişafında milli sahibkarların fəaliyyətinin rolunun araşdırılması;

– A.M.Nağıyevin şirkətinin yaranması və işgüzar əlaqələrinin tədqiq edilməsi;

– Şimali Azərbaycanda bəhs olunan dövrdə xeyriyyəçilik hərəkatının xarakterik xüsusiyyətlərinin nəzərdən keçirilməsi;

– Azərbaycan neft sənayesinin inkişafında A.M.Nağıyevin xidmətlərinin, sahibkarlıq, xeyriyyəçilik, ictimai fəaliyyətinin sistemli şəkildə öyrənilməsi, bununla əlaqədar olaraq irəli sürülən müxtəlif mülahizələrin ümumiləşdirməsi və bəzi elmi müddəaların irəli sürülməsi;

– Bakı şəhərinin tarixi-memarlıq simasının təşəkkülündə mühüm rol oynamış abidələri təşkil edən kompleks binaların inşasında A.M.Nağıyevin xidmətlərinin dəyərləndirilməsi;

– A.M.Nağıyevin vəfatından sonra varislik məsələsini işıqlandırması;

– sovet repressiyalar maşınının hücumlarına məruz qalmış A.M.Nağıyevin varislərinin taleyinin tədqiqata cəlb edilmiş ilkin mənbələr əsasında araşdırılması.

**Tədqiqatın metodları.** Yuxarıda sadalanan vəzifələrin yerinə yetirilməsində bir sıra elmi metodlardan istifadə edilmişdir. Tədqiqat prosesində ümumi məntiqi metodlardan – dialektik müqayisə, analiz, sintez, ümumiləşdirmə, habelə tarixi təsvir metodlarından istifadə ilə yanaşı, tarixi-müqayisə və sistemli yanaşma üsulları da geniş şəkildə tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Mövcud dissertasiya işində müdafiəyə çıxarılan əsas elmi müddəalar sırasında aşağıdakıları sadalamaq olar:

– XIX əsrin sonu – XX əsrin əvvəllərində bütün Quzey Azərbaycanda olduğu kimi Böyük Bakı sənaye rayonunda da ciddi sosial-iqtisadi və ictimai-mədəni dəyişikliklər baş verirdi;

– Romanovlar Rusiyasının yürütdüyü sərt milli-müstəmləkə siyasətinə baxmayaraq neft işinin təşkili və inkişaf etdirilməsi sahəsində də kifayət qədər ciddi bir milli sahibkarlar təbəqəsi təşəkkül tapıb genişmiqyaslı fəaliyyət göstərmişdir;

– milli sərmayədarlar içərisində ən nüfuzluları və fəalları məhz neft maqnatları içərisində idi;

– neft sərmayədarları, habelə onların parlaq və xarizmatik nümayələrindən biri olan A.M.Nağıyev neft hasilatı, emalı, nəqli, reallaşdırılması sahəsində mühüm mövqelərə yiyələnə bilmiş neft işinin tərəqqisinə ciddi töhfələr verə bilmiş, bir sıra məsələlərdə qeyri-yerli neft işbazları ilə uğurla mübarizə apara bilmişdilər;

– milli sərmayədarların sadə xalq içərisindən fitri istedadı və ağlagəlməz işgüzarlığı hesabına iri sənayeçilərə çevrilməyi bacarmış parlaq nümayəndələrindən biri olan A.M.Nağıyev geniş xeyriyyəçilik fəaliyyəti ilə yanaşı genişmiqyaslı quruculuq işləri ilə də məşğul olmuşdur;

– A.M.Nağıyevin təşəbbüsü və vəsaiti ilə ucaldılmış onlarla əsaslı bina bu gün də xalqımıza xidmət edir və paytaxtımıza xüsusi gözəllik verir;

– A.M.Nağıyevin xatirəsi və onun varisləri sovet rejimi dövründə ciddi təqib və repressiyalara məruz qalmışdır;

– Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra bir çox tarixi həqiqətlərin aşkara çıxarılması işinin gedişində A.M.Nağıyev kimi şəxsiyyətlərin layiq olduqları qiymətin verilməsi istiqamətində ciddi əməli və elmi işlər görülür.

**Tədqiqatın elmi yeniliyi.** Məlumdur ki, neft milyonçularının sahibkarlıq, xeyriyyəçilik, ictimai fəaliyyətinin tədqiqi bütövlükdə Vətən tariximizin bitkin və dolğun mənzərəsinin yaradılması baxımından böyük elmi, mənəvi və siyasi əhəmiyyət kəsb edir. Tarix elmi sovet dövründə ideoloji çərçivədə saxlanılan, ön planda olan ideoloji bir sahə idi ki, tədqiq edilən mövzu və məsələlər "yuxarıdan" göstəriş əsasında "seçilirdi": Oktyabr çevrilişi Azərbaycan xalqının əsrlər boyu formalaşmış milli mentalitetini əks etdirən adət-ənənələri, mədəniyyəti, cəmiyyətdə mövcud olan dəyərləri kökündən dəyişərək yeni "sovet mədəniyyəti", "həyat tərzi" yaratmışdı. Xalqın tarixi saxtalaşdırılır, onun ziyalı nümayəndələri ilə bərabər sahibkarları da unutdurulur, repressiyalarla üzləşirdilər. Qeyd edilmiş bu proseslər 70 il sürən sovet dövrü ərzində Azərbaycan xalqının tarixi həqiqətləri əks etdirən məlumatlarının tarixi tədqiqatlardan silinməsinə səbəb olurdu. Nəticədə tarix elmində unudulmuş tarixi səhifələrin mövcud olması müəyyən bir boşluqların əmələ gəlməsinə gətirib çıxarırdı.

Müasir Azərbaycan milli tarixşünaslığında bu boşluğun doldurulmasına ehtiyac duyulur. Müəllif hazırkı dissertasiya işində mövcud olan boşluğun bir hissəsini məşhur Azərbaycan mesenatı, neft sahibkarı A.M.Nağıyevin sahibkarlıq fəaliyyəti ilə bərabər ictimai, xeyriyyəçilik hərəkatında rolunu tədqiq edərək doldurmağa cəhd göstərərək, düşünürük ki, müəyyən uğur qazanmışdır.

Sovet cəmiyyətində tarixi araşdırmaların da "sinfi mövqedən" aparılması labüd idi. Məhz "sinfi düşmən" kimi qiymətləndirilərək Bakı neftinin inkişafında xüsusi rol oynamış sahibkarların fəaliyyəti yalnış, neqativ çərçivədə verilirdi. 70 il sovet dövründə ictimaiyyətin fikri də sinfi mövqedən formalaşaraq A.M.Nağıyevin, H.Z. Tağıyevin, T.B.Aşurbəyovun, İ.Hacınskinin və bir çox başqa sahibkarların fəaliyyəti yalnız "qaniçən" kapitalistlərin fəaliyyəti kimi qələmə ve-

rilmişdi. Sovet dövrünün Azərbaycan tarixi ali və orta məktəb dərsliklərində, bədii, sənədli filmlərdə yalnız neqativ prizmada işıqlandırılmışdır.

Məlumdur ki, sahibkarların bizneslərinin qurulub inkişaf etdirilməsi özünəməxsus zəhmət tələb edirdi. Bu zəhmətin nəticəsində qazanılmış vəsait sonradan yenidən istehsalat dövriyyəsinə sərf ediləрək daha da çoxalırdı. Cəmiyyətdə o sahibkar hörmətə layiq idi ki, onun qazandığı mənfəət cəmiyyətin sosial problemlərinin həll olunmasına sərf edilirdi. Bu baxımdan dissertasiya işinin elmi yeniliyi həm də ondan ibarətdir ki, burada A.M.Nağıyevin başqa azərbaycanlı neft sahibkarları ilə bərabər Azərbaycan neft sənayesi tarixinin bir hissəsini təşkil edən çoxşaxəli xeyriyyəçi və ictimai fəaliyyətini tədqiq edilmişdir.

Dissertasiyada Azərbaycan milli tarixşünaslığında ilk dəfə olaraq:

– A.M.Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyəti kompleks şəkildə öz əksini tapmışdır;

– Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq, A.M.Nağıyevin fəaliyyətini işıqlandıran bir çox mötəbər sənədlər ailə arxivindən, eləcə də Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri elmi dövriyyəyə cəlb edilmişdir;

– "A.M.Nağıyev", "Nobel Qardaşları Neft hasilatı" şirkətlərinin arxiv fondlarından geniş istifadə edilmişdir;

– A.M.Nağıyevin sahibkarlıq fəaliyyəti birinci Bakı neft bumu dövründə fəaliyyət göstərmiş yerli və xarici şirkətlərlə sıx iş birliyi ikitərəfli müqavilələrdə də öz əksini tapmışdır;

– elmi dövriyyəyə ilk dəfə olaraq cəlb edilmiş bu müqavilələr A.M.Nağıyevin peşəkar sahibkarlıq simasının işıqlandırılmasına imkan vermişdir;

– bu müqavilələr eyni zamanda A.M.Nağıyevin birinci Bakı neft bumu dövründə mövcud olan böyük şirkətlər sırasında möhkəm mövqe tutmasına və onlarla apardığı rəqabətin bəzi məqamlarına "işıq tutmağa" imkan vermişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırmanın nəticələri Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlərin, Bakı neftinin tarixi salnaməsinin, Bakı şəhərinin tarix-memarlıq binalarının

kataloqunun tərtib edilməsində, milli sahibkarlar haqqında monoqrafiyaların, ensiklopediyanın, məlumat kitabçalarının, orta və ali məktəblər üçün dərs vəsaitlərinin yazılmasında istifadə oluna bilər. Tədqiqatın materialları ali məktəblərdə Azərbaycan tarixinə dair mühazirələr və xüsusi seminar kurslarının tədrisində, orta məktəblərdə məşğələlərin keçirilməsində, muzey və sərgi zallarında neft tarixinə aid xüsusi ekspozisiyaların sərgilənməsində, sənədli və bədii filmlərin çəkilməsində, dövrü mətbuatda istifadə edilə bilər.

Müəllifin uzun illər ərzində A.M.Nağıyevin xeyriyyəçilik və maarifçilik fəaliyyətinə dair apardığı araşdırmaların nəticələri "Milli Dəyərlərin Qorunması" İctimai Birliyinin yaradılmasında, "Ağamusa Zirvəsi", "Bakı gecələri", "Vətənpərvər" diplomlarının təsis edilməsində, "musanagiyev.com" internet səhifəsinin yaradılmasında birbaşa rol oynamışdır.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin beş kitabında, habelə mötəbər elmi nəşrlərdə işıq üzü görmüş 7 məqaləsində öz əksini tapmışdır. Araşdırmaların nəticəsinə müvafiq olaraq A.M.Nağıyev irsinin aşkara çıxarılması və onun xatirəsinin əbədiləşdirilməsi istiqamətində xeyli işlər görülüb.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Yeni tarix və Azərbaycan xalqına qarşı soyqırımlar tarixi" şöbəsində yerinə yetirilmişdir (30 iyun 2017-ci il tarixli iclasının 6 saylı protokolu).

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna olunmaqla) 240909 işarədir. Giriş – 23057 işarədən, I fəsil – 94787 işarədən, II fəsil – 69928 işarədən, III fəsil – 44872 işarədən və nəticə 8265 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində müəllif tutarlı dəlillərə əsaslanaraq bu mövzunun aktuallığını əsaslandırılmış, mövzunun öyrənilmə səviyyəsini nəzərdən keçirmiş, mənbə bazasını təhlil etmiş, tədqiqatın məqsəd və vəzifələrini müəyyənləşdirmiş, araşdırmanın metodoloji əsaslarına aydınlıq gətirmiş, dissertasiyanın elmi yeniliklərini, nəzəri və əməli əhəmiyyətini dəyərləndirmişdir.

Dissertasiyanın iki yarımfəsildən ibarət olan birinci fəsli **"XIX əsrin sonu – XX əsrin əvvəllərində I Bakı bumu və A.M.Nağıyevin sahibkarlıq fəaliyyəti"** adlanır. Bu fəslin **"XIX əsrin sonu – XX əsrin əvvəllərində I Bakı neft bumu dövründə Azərbaycan milli sahibkarlarının fəaliyyəti"** adlı ilk yarımfəslində adı çəkilən dövrdə Bakı neft bumu dəyərləndirilir, Bakının rolunun güclənməsi nəzərdən keçirilir, iltizam sisteminin 1872-ci ildəki ləğvindən sonra Bakı neft sənayesində baş vermiş sürətli sıçrayış haqqında maraqlı rəqəmlər gətirilir.[49]

Bu yarımfəsildə qeyd olunur ki, I Bakı neft bumu dövründə burada 200-dən çox neft şirkəti fəaliyyət göstərirdi. Bu şirkətlərin sahibkarları içərisində xarici iş adamları və Rusiya sahibkarları ilə yanaşı yerli sahibkarlar da var idi.

Müəllif haqlı olaraq qeyd edir ki, Bakı neft bumu çar Rusiyası üçün yüksək gəlirli yeni sənaye sahəsinin əsasını qoydu, çar xəzinəsinin valyuta gəlirlərini xeyli artırdı, Rusiyanı dünya neft bazarında ABŞ ilə birbaşa ciddi rəqabətə çəkdi.[50]

Bu yarımfəsildə XIX əsrin 70-90-cı illərində Bakı neft sənayesinin sürətli inkişafı nəzərdən keçirilir, neft sənayesi müəssisələri sahibləri içərisində azərbaycanlı sahibkarların sayı nəzərə çatdırılır.

---

[49] Ахундов, Б.Ю. К вопросу об иностранном капитале в дореволюционной бакинской нефтяной промышленности / – Баку: Известия АН Азерб.ССР, – 1953. – №4, – s.12.

[50] Аханчи, П.А. Нефтепромышленные рабочие Баку: (конец XIX – начало XX веков): по "личным делам" рабочего персонала "Товарищества нефтяного производства Братья Нобель" / Международный Информационный Нобелевский Центр; под ред. проф. В.М.Тютюнника. – Тамбов; Москва: Санкт-Петербург: Баку; Вена; Гамбург: изд-во МИНЦ "Нобелистика", 2013. –с. 18.

Burada qeyd olunur ki, XIX yüzilliyin sonlarında 167 neft sənaye müəssisəsindən 49-u azərbaycanlılara məxsus idi. Bu fəsildə Azərbaycan neft sənayesinə isveç, fransız və ingilis kapitalının nüfuz etməsi məsələləri də nəzərdən keçirilmişdir. Müəllif neft sahibkarları arasındakı rəqabətə, neft sənayesi ilə bağlı olan bir sıra sahələrin inkişafına, neft ixracı problemlərinə toxunur. Yarımfəsildə qeyd olunur ki, 1901-ci ildə Bakıda neft hasilatı təxminən 672 milyon puda çatmışdır ki, bu da dünya neft hasilatının yarıdan çoxuna, çar Rusiyasında neft hasilatının isə 95%-ə bərabər idi.[51]

Yarımfəslin bir hissəsində müəllif azərbaycanlı neft sənayeçilərinin fəaliyyətinin ümumi mənzərəsini yaratmış, Tağıyev, Nağıyev, Əsədullayev və başqa sahibkarların fəaliyyətini ətraflı şəkildə işıqlandırmışdı. O, göstərir ki, 1914-cü ilə aid arxiv materiallarının məlumatlarına görə Bakıda 58 azərbaycanlı sahibkara məxsus olan 83 firma fəaliyyət göstərirdi.[52]

Dissertant bu sahibkarları 5 qrupa ayıraraq onların istehsal fəaliyyətinə qiymət verməyə cəhd göstərir. Tədqiqatın yekununda dissertant bildirir ki, XX əsrin əvvəllərində Bakı neft sənayesində çalışan azərbaycanlı sahibkarların müəssisələrində 5-6,5 min nəfər fəhlə çalışırdı. Bu da bütün neft sənaye fəhlələrinin 17-23 faizini təşkil edirdi.[53]

İlk fəslin sonuncu yarımfəslində (**"A.M.Nağıyev şirkətinin yaranması və işgüzar əlaqələri")** qeyd edilir ki, Bakı neft bumu dövrünün ən zəngin simalarından biri də A.M.Nağıyev (1849-1919) olmuşdur. Bakı yaxınlığındakı Biləcəri kəndində kasıb ailədə anadan olmuş A.M.Nağıyev əməksevərliyi, fitri istedadı, məqsədyönümlülüyü və uğurlu bəxti hesabına yoxsulluqdan zənginliyə doğru nağılvari bir həyat yaşamışdır. O, artıq 1879-cu ildə 30 min rublluq əmlaka

---

[51] Список промышленных предприятий, имеющих паровые котлы и подлещажих к оплате сборов. 1903-1915 гг. // ARDTA, f.509, siy.1, iş 105, v. ~~39~~ 12-42.

[52] Письмо управляющего отделом промышленности министерства торговли и промышленности В.Литвинова // ARDTA, f.509, siy.1, iş 242. v. ~~3~~ 2-3.

[53] Обзор Бакинской нефтяной промышленности … за 1900 год, очерк нефтяной промышленности С.Америки и статистические сведения о нефтяной промышленности в Грозном. – Баку: – 1901. – с. 90-91.

malik idi. 5-6 ildən sonra onun şirkətinin ticarət dövriyyəsi artıq 700 min rubla yüksəlmiş, A.M.Nağıyev ikinci gildiya taciri vəsiqəsini qazanmışdır.

XX əsrin əvvəllərində o, təkcə neft hasilatı ilə deyil, neft emalı, bank, ticarət və s. təsərrüfat sahələri ilə məşğul olan zəngin bir milyonçu idi. 1900-cü ildə onun firması təxminən 7,8 milyon pud neft hasil etmişdi. Lakin kiçik firmalardan satınalmalar hesabına onun zavodu hər il 15 milyon puda yaxın xam neftdən istifadə edirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində A.M.Nağıyev Bakının ictimai həyatında da fəal iştirak edirdi. O, 20 ildən artıq şəhər dumasının qlasnısı, habelə Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının, Bakı Ağ Neft Zavodçuları İttifaqının və Sərəncam Komitəsinin üzvü olmuşdur. Birinci Dünya müharibəsinə bir qədər qalmış onun təkcə neft mədənlərində min nəfərə qədər fəhlə çalışırdı.[54]

Dissertasiyanın ikinci fəslinin **("A.M.Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti") "A.M.Nağıyevin Azərbaycanda xeyriyyəçilik hərəkatında rolu"** adlı ilk yarımfəslində göstərilir ki, həyatın bütün keçməkeşli və ziddiyyətlərinə baxmayaraq A.M.Nağıyev xalqına və vətəninə bağlı şəxsiyyətlərdən olmuşdur. O, əldə etdiyi saysız-hesabsız gəlirinin bir hissəsini millətin maariflənməsinə sərf etmiş, müsəlman qızlarıının ibtidai təhsilini maliyyələşdirmiş, Bakıdakı üçüncü birsinifli ibtidai məktəbin hamisi olmuş, Qara şəhərdəki mülklərindən birini 11 saylı məktəbin istifadəsinə vermiş, 1897-ci ildə fəhlə və qulluqçular üçün xalq kitabxanası təsis etmiş və başqa xeyriyyəçilik işləri ilə məşğul olmuşdur.

A.M.Nağıyev Bakıda "Ruhaniyyə" Cəmiyyətinin təşkilatçılarından olmuş və qısa müddət bu cəmiyyətin sədri kimi çalışmışdır. A.M.Nağıyev yaxşı tanınmış "Nəşri-Maarif" Cəmiyyətinin də fəal üzvlərindən və onu maliyyələndirənlərdən biri olmuşdur.

A.M.Nağıyevin "Səadət", "Nicat" və digər xeyriyyə cəmiyyətlərinin yaradılmasında və maliyyələşdirilməsində, eləcə də yenicə meydana çıxmış Azərbaycan teatrının inkişafında da rolu olmuşdur.

---

[54] Кавказское акционерное общество обработки волокнистых веществ "Г.З.А.Тагиев». Мемориал, март 1907 г. Отчеты физических лиц // ARDTA, f.372, siy.1, iş 29, v. 3

O, bir çox tamaşaların premyeralarında iştirak edərək, N.Nərimanov, C.Zeynalov və başqa teatr xadimlərini qiymətli zinət əşyaları ilə mükafatlandırmışdır.[55]

İkinci fəslin sonuncu yarımfəslində (**"Bakı şəhərinin memarlığına A.M.Nağıyevin töhfəsi")** qeyd olunur ki, müasir Bakının gözəllik tacı sayılan İsmailiyyə sarayı, minlərlə gənc ailələrin özülü qoyulan Səadət sarayı, on minlərlə insana şəfa vermiş Təcili Yardım Xəstəxanası, daha neçə-neçə nəhəng mülk və saraylar onları tikdirmiş H.Z.Tağıyev, A.M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev, İ.Hacınski və başqaları kimi millətsevər milli burjuaziya nümayəndələrindən sonrakı nəsillərə bir növ ərmağandır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanlı sərmayədarlar içərisində geniş intişar tapmış xeyriyyəçilik və mesenatlıq hərəkatının fəal üzvlərindən biri də A.M.Nağıyev idi. O, 1907-ci ildə Bakı Real məktəbi binasının tikintisinə 25 min rubl pul ayırmışdı. Məhz onun vəsaiti hesabına indiki E.Əfəndiyev adına xəstəxana, Ana və Uşaq Pediatriya İnstitutu, Sabunçu Poliklinikasının binaları tikilmişdir. Şəhərin bənzərsiz tikintisi olan İsmailiyyə binası A.M.Nağıyevin tikdirdiyi 98 binanın tacıdır. Onun vəsaiti hesabına Bakı memarlığında neçə-neçə gözəl binanın layihə müəllifi olmuş İ.K.Ploşko (1866-1931) 1907-1913-cü illərdə İsmailiyyə sarayının tikintisinə rəhbərlik etmişdir. Yeni Avropa mehmanxanasının binası da A.M.Nağıyevin sifarişi ilə İ.K.Ploşko tərəfindən layihələndirilmişdir.

Dissertasiyanın sonuncu – üçüncü fəsli **"A.M.Nağıyev və onun varislərinin sonrakı taleyi"** adlanır. Bu fəslin **"A.M.Nağıyevin vəfatı və xatirəsinin əbədiləşdirilməsi"** adlanan ilk yarımfəslində qeyd olunur ki, 1919-cu il mart ayının 4-də Bakı şəhərində baş vermiş iki hadisə bütün türk-müsəlman dünyasında əks-səda doğurdu. Şəhərdə sürətlə şayiələr yayılmağa başlamışdı: qüdrətli sənətkar, istedadlı səhnə ustası Hüseyn Ərəblinskinin xaincəsinə qətlə yetirilməsi və Bakının neft kralı, milyonçu, xeyriyyəçi A.M.Nağıyevin vəfat etməsi.

Naqafil ölüm A.M.Nağıyevin gələcəyə köklənmiş planlarını yarımçıq qoydu. 11 yaşından zəhmətlə gündəlik dolanışıq üçün pul

---

[55] Sarabski, H.Q. Köhnə Bakı / H.Q.Sarabski. – Bakı: Minarə, – 2000, – s.60.

qazanan sadə bir kəndli övladı A.M.Nağıyev 49 yaşında dünyada milyonçu kimi tanınmış, 70 yaşında yaratdığı zəngin irsi özündən sonrakı nəsillərə ərməğan edərək dünyasını dəyişmişdi.

Ümmülbanu (Banin) babasının vəfatı barədə belə yazırdı: "... Babam Musa öldü, bizə özünün böyük sərvətini qoyub getdi. O sərvət ki, onlarla milyonçusu olan Bakı kimi bir şəhərdə çox böyük sərvət sayılırdı. Babamın meyitini çarpayıya qoyub üstünü örtmüşdülər... Deyirdilər ki, o, ölümdən elə qorxurmuş ki, yanında bu mövzuda söhbət salmağı belə qoymurmuş. Qədim bir Şərq rəvayətində deyilir ki, ev tikdirən adamı əcəl aparmır. Babam da neftdən qazandığı milyonların hesabına bir-birinin ardınca çoxlu ev tikdirirdi. Beləliklə, öldüyü günə qədər altmışdan çox ev tikdirmişdi. Amma el rəvayəti yalan çıxdı. Babam Musa axırıncı evi tikdirib qurtarmamış ölüm onu yaxaladı...".[56]

A.M.Nağıyevin vəfatı ilə bağlı olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin bir nömrəli mətbuat orqanı olan "Azərbaycan" qəzeti 5 mart 1919-cu il tarixli sayının birinci səhifəsində verdiyi başsağlığında yazırdı:

"A.M.Nağıyev – ən orijinal şəxsiyyətlərdən biri, təbiətən intəhasız enerjili, qabiliyyətli, mükəmməl formalaşmış bir insan həyatdan getmişdir. İri kapital sahibi olan Ağa Musa xalqının bütün tələblərinə rəğbətlə yanaşıb. Elə bir əhəmiyyətli ictimai məsələ olmayıb ki, orada onun əvəzsiz xidməti olmasın... Rəhmətliyin xidmətləri onun xalq arasında xatirəsini əbədi yaşatmağa qadirdir".

Azərbaycan türkcəsində çap olunan başsağlığı mətnin rusca yazılmış variantında bəzi detallara qismən aydınlıq gətirilmişdir. Məsələn, A.M.Nağıyevin cümə axşamı, gündüz saat 10-da yox, 10:20-də vəfat etdiyi bildirilir, cənazə duasının mərhumun 8 saylı evində olacağını xəbər verilirdi.

A.M.Nağıyevin vəfatı ilə əlaqədar "Kir" imzalı bir mühərririn rus dilində "Azərbaycan" qəzetində çap etdirdiyi nekroloq böyük maraq kəsb edir. Bu yazı indiyə qədər Azərbaycan dilində çap olunmadığını nəzərə alaraq, müəllif dissertasiyada onun tam mətni təq-

---

[56] Süleymanov, M. Azərbaycan milyonçuları. A.M.Nağıyev / M.Süleymanov. – Bakı: Gənclik, – 1994. – s.30.

dim edir. Nekroloqda qismən deyilirdi: "Musa Nağıyev əzablı xəstəlikdən sonra ahıl yaşında vəfat etdi. Təbiət tərəfindən qeyri-adi enerji, əzm və qabiliyyətlərlə təltif edilmiş xəzinə, ən orijinal insanlardan biri səhnədən endi. Əgər rəhmətlik kimi, belə genişmiqyaslılığa malik insanlar daha normal həyat şəraitlərində dünyaya gəlib boya-başa çatsaydılar, onlar öz xalqı və əsrləri üçün qiymətli sərvət olardılar". Mərhumun öz xalqına sədaqətinin ən qiymətli abidəsi barbarlar tərəfindən 1918-ci ilin yazında dağıdılmış gözəl "İsmailiyyə" sarayı sayıla bilər. Bu binanı mərhum oğlu İsmayılın xatirəsinə tikdirib, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nə hədiyyə etmişdi. Bu bina Azərbaycan türklərinin mədəni və ictimai həyatlarının mərkəzi oldu. "Ümid etməliyik ki, mərhumun vərəsələri dağıdılmış "İsmailiyyə" binasını yenidən ucaldacaq və bu Ağa Musanın əməllərinə ucaldılmış ən gözəl abidə olacaq.

Mərhum ancaq öz xalqının ehtiyaclarına deyil, onun doğma şəhərində baş verən bütün xeyirxah təşəbbüslərə cavabsız qalmırdı. Millət fərqi olmadan bütün ehtiyacı olan uşaqların sığınacaq tapdıqları Şəhər Uşaq Xəstəxanasını xatırlamaq yetərli olar. O, səxavətli ianələri ilə Uşaq Xəstəxanası Cəmiyyətinin çağırışına və xəstəxana binasının inşasına etinasız qalmadı. Mərhumun vəsaiti ilə Real məktəbin ikinci və üçüncü mərtəbələri tikilmişdir. Mərhumun həyatı boyunca etdikləri bütün yaxşılıq və faydalı işlərini sadalamaq qeyri-mümkündür. Mərhum xalq arasında xatirəsinin unudulmamasına layiqdir".

A.M.Nağıyevin nəşi 1919-cu ildən onun qəbri üzərinə qoyulmuş kiçik başdaşı ilə bərabər Çəmbərəkənd qəbristanlığında, Biləcəridəki Proparka, əmanət məzarlarda qalmışdır. 1998-ci il iyulun 23-də xeyriyyəçi axund Hacı Əvəzin və Ağa Musanın nəvələri – Dilarə, Rauf və Solmaz Nağıyevlərin təşəbbüsü ilə onun nəşi Biləcəri qəbiristanlığının girəcəyində daimi məzara qoyulmuşdu. 80 il onun üzərində olan baş daşı isə məzarın üzərində qoyulmuş "İsmailiyyə" binasının maketinin içərisinə həkk olunmuşdu.[57]

2016-cı ildə Binəqədi rayon İcra Hakimiyyətinin qərarı ilə ye-

[57] İlkin, Q. Sən köhnə Bakını tanıyırsanmı. Qısa tarixi oçerklər / Q.İlkin. – Bakı: Şirvannəşr, – 1997. – 72 s.

nidən məzarüstü abidədə bərpa işləri aparıldı və iş adamı Zülfiqar Muxtarzadənin xeyriyyəçiliyi ilə A.M.Nağıyevin məzarının üstündə qoyulan büstü İsmailiyyənin maketini əvəz etdi.

Fəslin ikinci yarımfəsli bu milyonçunun vəfatından sonrakı varislik məsələlərinin araşdırılmasına həsr olunmuşdur. Bu yarımfəsildə artıq 1919-cu ildə başlanmış varislik üzrə məhkəmə dartışmaları nəzərdən keçirilmiş, onun mirasına iddiası olanların sırasına aydınlıq gətirilməyə cəhd göstərilmiş, mərhumun mülklərinin bölüşdürülməsi məsələləri işıqlandırılmışdır.

Fəslin və dissertasiyanın sonuncu yarımfəsli **"Sovet repressiyası dövründə A.M.Nağıyevin varislərinin taleyi"** adlanır. Bu yarımfəsildə Ağa Musanın oğlu İsmayılın qısa ömrünə nəzər salınır, qardaşı Ağaəli tərəfindən ona oğulluğa verilmiş Fərəc Nağıyevin həyat yolu ətraflı şəkildə işıqlandırılır, Azərbaycan, Qafqaz və Qərbi Avropanın mədəni həyatında tanınmış simalardan olan Baninin xatirələrinə də müraciət etməklə Nağıyevlər nəslindən olan bu xanımın fəaliyyəti işıqlandırılmışdır.

Dissertasiyanın **nəticə** hissəsində tədqiqatçının başlıca ümumiləşdirmələri verilmiş, dissertantın çıxardığı əsas elmi nəticələr öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır**:

1. Xalq üçün ömrünü şam kimi əridən... – Bakı: RAF-R poliqrafik servis, 2006. 248 s.

2. Ömrün səhifələri. – Bakı: Şur nəşriyyatı, 2010. 159 s.

3. Zamanın sorağında. – Bakı: Elm, 2011. 229 s.

4. A.M.Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti. – Bakı: Elm, 2011. 140 s.

5. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda xeyriyyəçilik hərəkatı və A.M.Nağıyev // Tarix və onun problemləri. №1. Bakı: 2013, s. 73-77.

6. Из истории предпринимательской деятельности нефтяного магната Ага Мусы Нагиева // Международный научный журнал «Кавказ и мир». №15. Тбилиси: 2013, с. 117-120.

7. В поисках прошлого. – Баку: Elm, 2014. 228 с.

8. Bakı şəhərinin memarlığına A.M.Nağıyevin töhfəsi // Pedaqoji Universitet Xəbərləri. №1. Humanitar elmlər bölməsi. Bakı: 2014, s. 124-127.

9. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda xeyriyyəçilik hərəkatının tarixindən // AMEA Naxçıvan Bölməsinin Xəbərləri (İctimai və humanitar elmlər seriyası). Cild 10, №1. Bakı: 2014, s. 100-105.

10. Azərbaycan neft sənayesinin inkişafında A.M.Nağıyevin rolu // "Dövlət idarəçiliyi" jurnalı – Nəzəriyyə və təcrübə, №2 (46). Bakı: 2014, s. 219-223.

11. A.M.Nağıyev – XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın iri neft sahibkarı // "Dövlət idarəçiliyi – Nəzəriyyə və təcrübə" jurnalı. №1 (53). Bakı: 2016, s. 233-237.

12. AXC dövründə Azərbaycan xalqına üz vermiş bir itkinin tarixindən (sənayeçi və mesenat A.M.Nağıyevin həyatının son dövrünə aid materiallar üzrə) // Tarix və gerçəklik. Bakı: 2018, s. 47-53.

Dissertasiyanın müdafiəsi "04" " mart " 2022-ci il tarixində saat " 10 " Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı: – 1143, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat " 31 " " yanvar " 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.01.2022
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 38622
Tiraj: 100